***Azərbaycan dili fənni üzrə***

1. Hansı nümunədə daha çox durğu işarəsi olmalıdır?

A) O dayanmadan Nazimi çağırdı ancaq nə evdən nə də tünd yaşıla boyanmış tövlədən səs gəldi.

B) Tələbə qızlar Aynur Sevinc Sevda bu qərarı anlaya bilmədilər.

C) Orada dənizin sahilində açıq sarı paltar geyinmiş əlində qum dənəcikləri tutmuş qızcığazı dövrəyə almış onu təəccüblə süzmüşdülər.

D)) Doğrusu Samir sizin səssizliyinizə biganəliyinizə görə heç kimə nə dostlarına nə də qohumlarına güvənə bilir.

E) O gedərkən anasına qonşularına ətrafında dayanan tanımadığı insanlara baxdı sanki onların gözlərində mərhəmət görmək istədi.

2. Klasteri tamamlaya bilən bəndi müəyyən edin.

qaynaq

I .....

II .....

III .....

A) I – Sadə isim; II – qaymaq; III – çardaq
B)) I – Feildən düzələn isim; II – dayaq; III – daraq
C) I – İsimdən düzələn isim; II – balaq; III – şallaq
D) I – Sadə sifət; II – maymaq; III – şıltaq
E) I – Düzəltmə sifət; II – oynaq; III – qorxaq

3. Cümlələrdən birində hal şəkilçisiz isim hal şəkilçisi qəbul edə bilər:

A) Nökər bizi xalça ilə döşənmiş dəhlizlə iş otağına apardı və əlindəkini yerə tulladı.

B) O, səbir göstərdi və düyünçəni təmkinlə cibinə qoydu.

C)) Kənd yoluna boylandı ki, uşaqların gəlib-gəlmədiyini görsün.

D) Yaz fəslində məktub gəldi, həyəcanımız artdı.

E) O, uçuq binaları nəzərdən keçirdi, sonra daş hasarı adladı.

4. Başqa nitq hissəsinin əlamətini daşıyan sifət hansı cümlədədir?

A)) Gəmidəki kapitan onun körpəsini qoruya bilmədi.

B) Bu gün oxuduğum roman çox maraqlı idi.

C) O qorxmadan sözünü dedi və maşını cəld sürdü.

D) Qarpız elə ləzzətli idi ki, hər kəs yemək istədi.

E) Onun özü də yerə tökülmüşləri toplamadı.

5. Bir qrammatik əsası olan cümləni müəyyən edin.

A) Sən haraya, mən də oraya.

B) Güclü külək əsdi, ağacların yarpaqları töküldü.

C) Bilirdim, gələcəksən.

D)) Baharın xoş və təmiz nəfəsi onun xəstəliyini sağaltmışdı.

E) Uşaq deyiləm ki, məni danlayırsan.

6. Cümlənin çərçivə daxilində verilmiş hissəsi ilə bağlı doğru fikirləri müəyyən edin.

Şeir qanı axan yaranın, gülümsəyən dodaqların zümzüməsidir. (X.Cübran)

1. Baş üzvlərdən biridir.
2. Tərkibində II dərəcəli üzv də var.
3. Uzlaşma əlaqəsinin asılı tərəfidir.
4. İsmi xəbərdir.
5. Söz sırasına əməl olunmayıb.

A) 2, 3, 5 B) 3, 4, 5 C) 1, 2 D) 4, 5 E)) 1, 3, 4

7. Nöqtələrin yerinə əlavə olunsa, cümlə sintaktik cəhətdən iki cür təhlil olunar:

*Şagird... yenə gördü.*

A) -imiz B) -lə C) -lər D)) -i E) -im

8. *Amal uğrunda ölmək əbədi yaşamaqdır* (Ş.M.Xiyabani) cümləsi bu cümlə üzvlərindən ibarətdir:

A) tamamlıq, mübtəda, təyin, xəbər

B) mübtəda, zərflik, xəbər

C) tamamlıq,  xəbər

D) mübtəda, təyin, xəbər

E)) mübtəda, xəbər

9. Hansı söz çıxarılsa, cümlənin tərkibində həmcins üzvlər də olar?

*Ordu[1] dövlətin[2] təməlidir[3], vətənin[4] varlığını o[5] təmin edir.*

A) 3, 5
B) 2, 5
C) 1, 3
D) 4
E)) 5

10. Nöqtələrin yerinə elə söz müəyyən edin ki, tamamlanan cümlədə durğu işarələrinin işlənməsində *səhvə* yol verilməsin.

*Biz doğmalarımızı ..... yanımızda hiss edirdik.*

A) Tural    B)) sanki    C) əlbəttə    D) bəli    E) aramızda

***Mətni diqqətlə oxuyun və 11-20-ci tapşırıqları mətn əsasında cavablandırın.***

**Həyat da bir marafondur**

Bir gənc müdrik bir qocaya yaxınlaşıb deyir:

– Mən iyirmi üç yaşındayam, lakin bir problemim var. 1.Bir işə başlayanda həvəslə başlayıram, amma bu işi qurtarmamış[I] həvəsdən düşürəm. 2.İşimdəki ən adi çətinlik və ya uğursuzluqdan ümidsizliyə[II] qapılıram. Gördüyüm bütün işlər yarımçıq qalır. Sizcə, nə edə bilərəm?

Müdrik deyir:

– Hə, belə xarakter çoxlarına, xüsusən də gənclərə xasdır. Bu problemin öhdəsindən gələnlər güclü və inadkar şəxslərdir. Həyat bizə həmişə xoşbəxt təsadüflər bəxş etmir. Əksinə, çox vaxt acı sürprizlərlə qarşılaşmalı oluruq. Güclü insanlar xoşbəxtliyi dişləri, dırnaqları ilə qazanırlar. Sənə sadə bir nümunə[III] gətirəcəyəm. Meksika olimpiadasının adi bir günü idi, axşamtərəfi yarışma başa[IV] çatmışdı, hamı stadionu tərk edirdi. Birdən bir qaraltı gördülər. Yolda yaralanmış idmançı finiş xəttini axtarırdı. Çətinliklə addımlayırdı. O, nəhayət, finiş xəttinə çatdı. Həmin şəxs – Con Stiven Akvari 1968-ci il Olimpiadasında adını tarixə yazdı. Tarixə düşməsinə səbəb finişi axırda keçməsi yox, finişi keçdikdən sonra dediyi sözlər oldu. Ona sual verdilər ki, onsuz da qalib gələ bilməyəcəkdiniz, niyə yarışa davam etdiniz? O isə belə cavab verdi:

– 3.Ölkəm məni yarışa başlamaq üçün göndərmədi, yarışı başa vurmaq[V] üçün göndərdi.

4.Həyat özü də bir marafondur. Və əsas məsələ yarışa başlamaq yox, yarışı başa vurmaqdır. 5.Hətta yolun yarısında qəzaya düşsəniz belə.

*(Ayxan Salmanov)*

11. Hansı fikir mətnin məzmununu ümumiləşdirir?

A) Qələbə qazanmaq üçün hər şeyi – xəsarət almağı belə gözə almaq lazımdır.
B) Yarışlarda sonuncu olanlar daha çox məşhurlaşırlar.
C)) Əsas məsələ qələbə qazanmaq yox, axıra kimi mübarizə aparmaqdır.
D) Tarix yalnız qələbə qazananları məşhurlaşdırır.
E) Bəzən haqsızlıqla da barışmaq lazımdır.

12. Mətndə üzərində rəqəm yazılmış hansı ifadənin qarşılığına aid nümunə *yoxdur*?

*nikbinliyə, sona, misal, çatdırmaq, tamamlamadan*

A) I
B) III
C)) II
D) V
E) IV

13. Sxemə əsasən mətndəki səbəb-nəticə əlaqəsi ilə bağlı *yanlış* fikri müəyyən edin.

| ***Səbəb*** | ***Nəticə*** |
|---|---|
| Con Stiven Akvari yaralandı. | A)) Finiş xəttini keçdi.<br>B) Çətinliklə mübarizə apardı.<br>C) Yarışda sonuncu oldu.<br>D) Finişə axşamtərəfi çatdı.<br>E) Yeriməkdə əziyyət çəkdi. |

14. Mətnə əsasən Eyler-Venn diaqramında yol verilmiş *səhvləri* müəyyən edin.

***Stiven Akvari*** ***Qocaya müraciət edən gənc***




1. Probleminin həll olunmasını istəyir.
2. Üzərinə düşən öhdəliyi dərk edir.
3. Həmsöhbət olur.
4. Problemlə üzləşir.
5. Ziddiyyətli xarakteri var.

A) 1, 3, 5 B) 2, 4 C) 1, 2, 5 D) 3, 4 E)) 1, 4

15. Mətndəki hadisələr hansı ardıcıllıqla baş vermişdir?

1. Müdrik qocaya müraciət edən gənc çıxış yolu axtarır.
2. İdmançı xəsarət alır.
3. Meksikada olimpiada təşkil edilir.
4. Con Stiven Akvari finiş xəttini keçir.

A)) 3, 2, 4, 1 B) 3, 2, 1, 4 C) 1, 3, 2, 4 D) 1, 2, 4, 3 E) 2, 3, 4, 1

16. Bəhs olunan olimpiadanın bir gün ərzində tamamlanmadığını müdrikin nitqindəki hansı sözlə başlayan cümlə əsasında müəyyən etmək olar?
A) Birdən B) Yolda C) Həmin A)) Meksika E) Tarixə

17. Sitatların mətndəki obrazların həyat tərzinə uyğunluğunu müəyyən edin.

1. Gənc oğlan
2. Müdrik qoca
3. Con Stiven Akvari
   a. Sözü alana sat.
   b. Dad yarımçıq əlindən.
   c. Təsirli söz əbədi, təsirsiz söz fanidir.
   d. Söz əsər etməyənə çubuq da kömək etməz.
   e. Bəzən bir sözlə də illərlə yaddaşlarda qalmaq olar.

A) 1-a; 2-c; 3-e
B) 1-c, e; 2-a; 3-d
C)) 1-b; 2-a; 3-e
D) 1-c; 2-d, e; 3-a
E) 1-a; 2-e; 3-c,d

18. Mətndə sonuncu işlənmiş məcazi mənalı ifadə hansıdır?
A) başa vurmaqdır
B)) qəzaya düşsəniz
C) ölkəm göndərmədi
D) cavab verdi
E) həyat marafondur

19. Əvvəlində rəqəm yazılmış hansı cümlələr əsasında klasteri tamamlamaq olar?

Danışan şəxsin etirafını ifadə edir:

***Doğru cavab: 1, 2, 3***

20. Mətnə görə Con Stiven Akvariyə aiddir:
1. məsuliyyətlilik
2. şöhrətpərəstlik
3. qətiyyət
4. xeyirxahlıq
5. ədalətlilik

***Doğru cavab: 1, 3***

***Mətni diqqətlə oxuyun və 21-30-cu tapşırıqları mətn əsasında cavablandırın.***

## Vulkanlar

Yer kürəsində müxtəlif relyef formaları mövcuddur. Vulkanlar bunların ən təhlükəli olanlarından biridir. Cünki vulkanın yaratdığı lava, kül və palçıq axınları insanların həyatı və yaşayışı üçün çox təhlükəlidir.

Tarixdə vulkan püskürmələrinin böyük tələfatlara səbəb olduğu faktlar məlumdur. Eramızdan əvvəl XV əsrin ortalarında Krit adasının yaxınlığında püskürən vulkan burada yaranmış Avropada ən erkən sivilizasiya hesab olunan Minoy sivilizasiyasının məhvinə səbəb olmuşdur. Püskürmə nəticəsində əvvəl ada[1] vulkan külü ilə örtülmüş, sonra isə adaya hündürlüyü 100 metrə çatan dalğalar[2] hücum çəkmişdir. Eramızın 79-cu ilində İtaliyada Vezuvi vulkanının partlayışı Pompey, Herkulanum və Stabiya şəhərlərinin yox olmasına gətirib çıxarmışdır.

Böyük və kiçik şəhərlərin[3] çoxu vulkanların baş verdiyi ərazinin yaxınlığında yerləşir. Lakin təhlükələrə baxmayaraq, həmin şəhərlər gündən-günə böyüyür və inkişaf edir.

Vulkanoloq adlanan tədqiqatçılar vulkanların necə və hansı səbəblərdən **püskürdüyünü** araşdırırlar. Onlar vulkanları öyrənərkən hər ehtimala qarşı xüsusi kostyumlar geyinir və xüsusi alətlərdən istifadə edirlər. Vulkanoloqların araşdırmaları vulkan püskürməsini əvvəlcədən öyrənməyə kömək edir.

1991-ci ildə vulkanoloqların baş vermiş kiçik zəlzələləri[4] araşdırması nəticəsində məlum oldu ki, Filippin adalarındakı bir vulkan püskürmək üzrədir. Onların xəbərdarlığı sayəsində minlərlə insanı vulkan püskürməsindən öncə təhlükəli ərazidən uzaqlaşdırmaq və həyatlarını xilas etmək mümkün oldu.

Hələ də milyonlarla insan vulkan təhlükəsi olan ərazilərdə yaşayır. Onlara təhlükə[5] zamanı özlərini qorumaq üçün tez-tez təlimlər[6] keçirilir.

*(Kris Oksleyd. "Vulkanlar")*

21. Mətnlə bağlı hansı fikir doğrudur?

A) Vulkanoloqlar yalnız vulkanları araşdırırlar.
B) Vulkan təhlükəsi olan ərazilərdə insanlar yaşamırlar.
C) Vulkanoloqlar vulkanların qarşısını almaq yollarını araşdırırlar.
D)) Bir təbiət hadisəsini araşdırmaq digərlərinin də öyrənilməsinə şərait yaradır.
E) İnsanların həyatı üçün təhlükə törədən təbiət hadisələrinin qarşısını almaq müasir dövrdə mümkündür.

22. Mətnə görə insanlar müasir dövrdə vulkan təhlükəsindən necə qorunmağa çalışırlar?

A) vulkanik ərazilərdən uzaqda məskunlaşmaqla
B) vulkan olan ərazilərdə böyük şəhərlər salmamaqla
C)) vulkan püskürməsindən xəbərdar olub lazımi tədbirlər görməklə
D) vulkanik ərazilərin ətrafına müxtəlif sədlər çəkməklə
E) təhlükəli vulkanların söndürülməsi ilə

23. 1991-ci ildə Filippin adalarında baş vermiş hadisə göstərdi:

1. Vulkan hadisələrindən qorxmaq lazım deyil.
2. Vulkanoloqların işi əhəmiyyətlidir.
3. Tarix dəyişsə də, insan təbii hadisələrin təhlükəsi qarşısında əvvəlki qədər acizdir.
4. İnsanların nicat yolu, həyatın xilası elmdədir.
5. Təbiəti lazımi qədər öyrənmək mümkün deyil.

A)) 2, 4 B) 1, 5 C) 2, 5 D) 1, 3 E) 3, 4

24. Mətnə görə vulkanoloqlara aiddir:

1. Vulkanların püskürmə səbəbini araşdırırlar.
2. İnsanların həyatını xilas edirlər.
3. Vulkan püskürmələrinin qarşısını alırlar.
4. Vulkan hadisələrinin tarixini araşdırırlar.
5. Vulkan hadisələrindən qorunmaq üçün insanlara təlimlər keçirlər.

A) 1, 3, 5  B) 2, 4, 5  C)) 1, 2  D) 1, 4  E) 2, 3, 5

25. Mətnə əsasən müəyyən etmək olar:

Təlimlərin → 1. məqsədini
Təlimlərin → 2. səbəbini

Şəhərlərin → 3. böyümə səbəbini
Şəhərlərin → 4. relyefini
Şəhərlərin → 5. bəzilərinin yox olma səbəbini

A) 2, 4, 5
B) 2, 3
C) 1, 3
D) 1, 2, 4
E)) 1, 5

26. Altından xətt çəkilmiş ifadələr əsasında klasteri tamamlaya bilən fikirləri müəyyən edin.

“Vulkan yeganə təbiət faktı deyil”
fikrini sübut edən faktdır:

A) 3, 4, 5
B) 2, 4, 6
C)) 1, 2, 4
D) 1, 3, 6
E) 1, 2, 5

27. “Vulkanlar baş vermədən onları müəyyən qədər öyrənmək mümkündür” fikrini mətnin hansı ifadə ilə başlayan abzaslarının məzmunundan müəyyən etmək olar?

1. Vulkanoloq
2. Tarixdə
3. Böyük
4. 1991-ci ildə
5. Yer

A) 1, 5  B) 2, 4  C) 3, 5  D)) 1, 4  E) 2, 3

28. Hansı ifadə çərçivə daxilində verilmiş fikrin məzmunu ilə səsləşir?
A) Gözəllik ondur, doqquzu dondur.
B) Qorxan gözə çöp düşər.
C) Çörəyi ver çörəkçiyə, birini də üstəlik.
D)) Ehtiyat igidin yaraşığıdır.
E) Zər qədrini zərgər bilər.

29. Mətndə tünd-qara hərflərlə yazılmış ifadənin həqiqilik və ya məcazilik baxımından şərhinə uyğun fikirlərdir:

1. Məcazi mənalıdır.
2. "Mədəndə yeni neft püskürdüyünü müşahidə etdik" cümləsinin tərkibində mətndəki ilə oxşar mənada işlənib.
3. Həqiqi mənalıdır.
4. "Qəzəb püskürürdü" cümləsinin tərkibində mətndəki ilə eyni mənada işlənib.

***Doğru cavab: 2, 3***

30. Əlaqələndirmə ilə bağlı *uyğunsuzluğu* müəyyən edin.

| ***Plan bəndi:*** | ***Aid olduğu tərkib hissəsi:*** |
|---|---|
| 1. Sivilizasiyaların yox olması | əsas hissə |
| 2. Tədqiqatların əhəmiyyəti | nəticə |
| 3. Vulkan püskürməsi ilə bağlı özünümüdafiə tədbirləri | nəticə |
| 4. Təhlükəli ərazilərdə salınan şəhərlər | giriş |

***Doğru cavab: 2, 4***